AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Fakültə: İqtisadiyyat və idarəetmə**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri: i.f.d. dos. E. Q. Məmmədov**
**7 fevral 2025-ci il (protokol №-4)**

# "SOSIAL İŞİN NƏZƏRİYYƏSİ VƏ TƏCRÜBƏSİ-2" fənni üzrə

# İŞÇİ TƏDRİS PROQRAMI

## (Sillabus)

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | 00112 |
| **Fənnin növü:** | əsas |
| **Tədris ili:** | 2024/2025 |
| **Fənnin tədris semestri:** | yaz |
| **Fənnin tədris forması:** | əyani |
| **Tədris dili:** | Azərbaycan |
| **Fakültə:** | İqtisadiyyat və idarəetmə |
| **Qrup(lar):** | 205, 206, 207, 208 |
| **Tədris yükü:** | 45 saat (30/15) |
| **Kredit sayı:** | 4 |
| **Kafedra:** | "İctimai idarəetmə və sosial innovasiyalar" |

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** *i.ü.f.d., dos. Elşən Məmmədov*

**E-mail ünvanı:** memmedov.elshan@mail.ru

**İş telefonu:** 012-564-37-05

**Tələbələr üçün qəbul vaxtları:** II, IV günlər 14.00-16.00-dək

## III. Fənnin təsviri

«**Sosial işin nəzəriyyəsi və təcrübəsi-2**» fənninin mövzuları, müxtəlif sosial problemlərə elmi və peşəkar bilik əsasında yanaşan sosial iş müdaxiləsi məsələlərini özündə ehtiva edir.

Bu kursda, sosial iş ixtisasından məzun olacaq tələbələrin gələcəkdə işləyəcəyi sahələr və göstərəcəyi xidmət modelləri nümunələr əsasında izah edilir. Sosial iş peşəsi sosial problemlərin həm fərdi, həm də ictimai, iqtisadi və mədəni baxımdan dəyərləndirilməsini və müdaxilənin də çoxölçülü olaraq həyata keçirilməsini tələb edən yönü ilə digər peşələrdən fərqlənir. Sosial işin: sosial dəyişiklik, insan münasibətlərində problem həlli və rifahı yaxşılaşdırmaq üçün fərdin azadlığı kimi üç əsas miqyası vardır. Sosial dəyişiklik miqyasında sosial işçilər fərd, qrup və icma ilə işləyərkən bunların hamısında sosial inkişafa və ictimai həmrəyliyə yönəlmiş müdaxilələr edirlər. İnsan münasibətlərində problem həlli miqyasında: şəxsi yardım, məsləhət və dəstək ilə insanların həyatındakı çətinliklərin öhdəsindən gəlmələrinə kömək edəcək xidmət modelləri vardır. Rifahı yaxşılaşdırmaq üçün fərdin azadlığı miqyasında isə, terapevtik yardım yolu ilə müraciətçilərin gücləndirilməsi işləri yer alır.

Azərbaycanda son illərdə yenidən qurulan sosial rifah proqramları sayəsində sosial xidmətlərə ayrılan pay artırılmış və risk qrupu fərdlərin sosial funksiyonallıqlarını inkişaf etdirməyə yönələn işlər sürət qazanmışdır. Uşaq rifahı sisteminin gücləndirilməsi, qayğı və reabilitasiya xidmətlərinin dəstəklənməsi və genişləndirilməsi, şiddət və istismar hallarının azaldılmasına ağırlıq verilməsi, işsizlər üçün yardım fəaliyyətlərinə başlamaq kimi yeni xidmət modelləri sosial iş peşəsinin əhəmiyyətini və nüfuzunu artırmışdır.

Sosial iş peşəsi ciddi və həssas davranış tələb edir, çünki insan həyatını birbaşa təsir edən və insanlara toxunan bir peşədir. İnsan hüquqları və sosial ədalət kimi təməl dəyərlər işığında, insan ləyaqətinə hörmət idealına sahib olan sosial iş tələbələri, sosial işin etik prinsiplərinə riayət edərək peşə təcrübələrini ayrı-seçkilik etmədən yerinə yetirməlidirlər.

Sosial iş müdaxiləsi təcrübəsini öyrənməyi hədəfləyən bu fənn 15 mövzudan ibarətdir. Hər mövzu fərqli bir sahədə, nümunələr əsasında sosial işə müdaxilə

planına uyğun hazırlanmışdır. Bu fənn: sosial iş təhsilinin əsasını təşkil edən nəzəri biliklərin təcrübədə tətbiq olunması baxımından əhəmiyyətlidir.

**IV. Fənnin məqsədi və vəzifələri**

Sosial işin əsas hədəfi problem həlletmə prosesinə yönəlməkdir. Bu fənnin tədris olunma məqsədi müraciətçilərə və ya sosial işə müdaxilə mərhələlərini hansı metod və üsullarla, necə tətbiq olunduğunu öyrətməkdir. Bu mərhələlər mikro, mezzo və makro səviyyələrdə məlumat toplama, problemi müəyyənləşdirmə, planlaşdırma, müdaxilə planı hazırlama, lazımi müdaxilələr etmə və ya müdaxilələr nəticəsində sonlandırma, lazımi dəyərləndirmə aparmadır.

*Fənnin əsas məqsədi*: Sosial işin nəzəri əsaslarını vacib sosial problemlərin həlli üçün müxtəlif sahələrdə tətbiq edən peşəkar mütəxəssislər yetişdirməkdir.

Fənnin tədrisi qarşısında duran *vəzifələr* aşağıdakılardır:

- Sosial işin təcrübə əsaslarını öyrənmək;
- Sosial iş müdaxiləsi ilə bağlı yerli və xarici təcrübə nümunələri ilə tanış olmaq;
- Sosial işçi məsləhət, vasitəçilik, sosial müalicə, sosial reabilitasiya kimi vəzifələrin yerinə yetirilməsini öyrənmək;
- Çətin həyat şəraitinə düşən əhalinin müxtəlif qrupları ilə sosial iş metodlarını öyrənmək;
- Sosial iş sahəsində layihələrin hazırlanmasının vacibliyini, layihənin əsas elementlərini, hansı hissələrdən ibarət olduğunu, necə hazırlandığını və necə idarə olunduğunu öyrənmək;
- Azərbaycanda sosial işin həyata keçirilməsi funksiyalarının, prinsiplərinin və əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə tələbələrdə təcrübə bacarıqlarının formalaşdırılması.

**V. Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, keyslər və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqları formalaşdırması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqlar həll edəcəklər.

**VI. Öyrənmənin nəticələri:**

Fənni mənimsədikdən sonra tələbə aşağıdakı səriştə və bacarıqlara malik olur:

- Sosial iş təcrübəsində bilik, bacarıq və dəyərin əhəmiyyətini anlayır.
- Təcrübədə sosial işçilərin rollarını və funksiyalarını anlayır;
- Sosial iş təcrübəsində nəzəriyyə ilə təcrübə arasındakı harmoniyanın təmin edilməsi üsullarını əks etdirə bilir;
- Sosial risk qiymətləndirməsində nələrin nəzərə alınmalı olduğunu anlayır.
- Müxtəlif nəzəriyyələri tətbiq edərək problemlərin səbəbini müəyyən edir və müvafiq müdaxilələr edə bilir;
- Bir qrupda işləmək bacarığı, təmkinli şəkildə sosial, etnik və mədəni fərqləri qavrayır;
- Özünütəşkil və özünütərbiyə qabiliyyəti formalaşır;
- Sosial əhəmiyyətli problemləri və prosesləri qərəzsiz, elmi obyektivliklə təhlil etməyi bacarır;
- Hədəf auditoriyasının ehtiyac və problemlərinə uyğun bir sosial iş layihəsi həyata keçirməyin vacibliyini və əhəmiyyətini anlayır.

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Azərbaycanda sosial işin prinsipləri, məqsədləri və istiqamətləri, sosial işin həyata keçirilməsi üçün əsas modellər və onların xüsusiyyətləri, sosial işçinin rol və funksiyalarını, özünütəşkil və özünütəhsil metodlarını;
- İnsanların sosial fəaliyyətini pozan risk faktorlarını və risk altındakı şəxsləri müəyyənləşdirmək üçün hazırlanmış sosial risk yoxlama metodunun necə tətbiq olunmasını;
- Əhalinin müxtəlif qrupları: uşaqlar, gənclər, qadınlar, əlillər, yaşlı insanlar və s. ilə sosial iş texnologiyalarını;
- Müxtəlif sahələrdə: təhsil, səhiyyə, ədliyyə, sosial müdafiə və sosial xidmətlər sahəsində sosial iş texnologiyalarını.

**Bacarmalıdırlar:**

- Sosial iş sahəsindəki nəzəri biliklərdən istifadə edərək fərdlərin, sosial qrupların ehtiyac və maraqlarını müəyyənləşdirmək, ərazi, regional və mərkəzi səviyyələrdə əhalinin müxtəlif qruplarına kömək üçün xüsusi layihələr hazırlamaq;
- Çətin həyat şəraitində olan insanların sosial problemlərinin həllinə, eləcə də sosial qrupların və icmaların maraqlarının əlaqələndirilməsinə yönəlmiş təklif və tövsiyələr hazırlamaq;
- Sosial problemlər üçün uyğun yanaşma və müdaxilə metodlarını seçmək və tətbiq etmək;

- Sosial analiz və qiymətləndirmə aparmaq, müayinə hesabatı hazırlanması üçün müvafiq məlumatları ayırmaq və toplamaq;
- Sosial iş sahəsindəki ən kəskin iqtisadi və sosial problemləri müəyyənləşdirmək və düzgün şərh etmək, əhali ilə sosial iş sahəsində effektiv həllər üçün variantlar hazırlamaq və əsaslandırmaq.

## VII. Prerekvizitlər

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn: “Sosial işin nəzəriyyəsi və təcrübəsi-1”.

## VIII. Fənnin mühazirə mövzuları

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 3 saat (2 saat mühazirə və 1 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

**Mövzu: 1.** Sosial iş təcrübəsinə giriş
**Mövzu: 2.** Sosial risk sahəsi araşdırması
**Mövzu: 3.** Uşaq rifahı sahəsində sosial iş təcrübəsi
**Mövzu: 4.** Himayədar ailə və övladlığa götürmə sahəsində sosial iş
**Mövzu: 5.** Sosial yardım sahəsində sosial iş
**Mövzu: 6.** Ahıllarla sosial iş təcrübəsi
**Mövzu: 7.** Ailələrlə sosial iş təcrübəsi
**Mövzu: 8.** Əlillərlə sosial iş təcrübəsi
**Mövzu: 9.** Səhiyyə müəssisələrində sosial iş təcrübəsi
**Mövzu: 10.** Məktəb mühitində sosial iş təcrübəsi
**Mövzu: 11.** Ədliyyə müəssisələrində sosial iş təcrübəsi
**Mövzu: 12.** Sosial iş layihəsi hazırlama və tətbiqetmə
**Mövzu: 13.** Miqrantlarla və qaçqınlarla sosial iş təcrübəsi
**Mövzu: 14.** Sosial iş təcrübəsində etika
**Mövzu: 15.** Diğər sahələr üzrə sosial iş təcrübəsi

## IX. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, müzakirə sualları və tapşırıqlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## X. Əsas dərslik və ədəbiyyat

1. Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.
2. Adams, R., Dominelli, L., & Payne, M. (2015). Sosyal Hizmet Temel Alanlar ve Eleştirel Tartışmalar. Ankara: Nika Yayınevi.
3. Akbaş, E. (2014). Sosyal Çalışmada Çağdaş Eleştirel Perspektifler. Ankara: SABEV Yayınları.

4. Akyüz, E. (2013). Çocuk Hukuku: Çocukların Hakları ve Korunması (3. b.). Ankara: Pegem Akademi.
5. Abdulhakim beki (2016). Türkiyədə sosial iş təcrübələri. auzefkitap, İstanbul.
6. Duyan, V. (2012). Sosyal Hizmet Temelleri Yaklaşımları Müdahale Yöntemleri. Ankara: SHUD Yayınları.
7. Zastrow, C. (2013). Sosyal Hizmete Giriş. Ankara: Nika Yayınevi.
8. Thompson, N. (2013). Kuram ve Uygulamada Sosyal Hizmeti Anlamak. Ankara: Dipnot Yayınları.
9. Sheafor, B., & Horejsi, C. (2014). Sosyal Hizmet Uygulaması: Temel Teknikler ve İlkeler. Ankara: Nika Yayınevi.
10. Rosenberg, M. B. (2013). Şiddetsiz İletişim. İstanbul: Remzi Kitabevi
11. Hackney, H., & Cormier, S. (2008). Psikolojik Danışma İlke ve Teknikleri. Ankara: Mentis Yayıncılık.
12. Gladding, S. (2012). Aile Terapisi: Tarihi, Kuram ve Uygulamaları. Ankara: Türk PDR Derneği.
13. Worden, M. (2013). Aile Terapisi Temelleri. Adana: Nobel Kitabevi.
14. Erbay, E., Adıgüzel, İ. B., & Akçay, S. (2013). Sosyal Hizmet Öğrencilerinin Sosyal Hizmet Uygulaması Dersleri Kapsamında Uygulama Yürütecekleri Kurumları Tercih Etme Süreçleri. Toplum ve Sosyal Hizmet, 24(2), 95-108.
15. Karataş, Z., & Dağdelen, G. (2014). Çocukların Risklerden Korunmasında Erken Tanı Ve Uyarı Sisteminin Önemi. Türkiye'de Çocuğun Refahı ve Korunması Sempozyumu (s. 301-315). Ankara: Gündem Çocuk Derneği Yayınları.
16. Soygür, H. (2000). Bakımevlerinde Yaşlı Bakımı ve Psikolojik Değerlendirme. Demans Dizisi (1), 32-40.
17. Özbesler, C., & Duyan, V. (2009). Okul Ortamlarında Sosyal Hizmet. Eğitim ve Bilim, 34(154), 17-25.
18. Bond, T. (2016). Psikolojik Danışmanlıkta Etik ve Yasal Konular (2. b.). (B. Yeşilyaprak, Çev.) Ankara: Nobel Akademik Yayıncılık.
19. Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh.
20. Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

**FƏNN MÖVZULARI VƏ MƏQSƏDLƏR**

| Həftə | Mövzuların adları | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Sosial iş təcrübəsinə giriş** | Sosial iş təcrübəsinin əsasları. Sosial iş tələbəsinin təcrübə fəaliyyəti. Təcrübədə sosial işçinin rolu və | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul. |

| | | | |
|---|---|---|---|
| | | funksiyaları. Təcrübədə sosial işə müdaxilə prosesi. Sosial iş dəyərlərinin tətbiqə köçürülməsi. Sosial işçi namizədi olan tələbələr üçün təkliflər. | **2.** Sheafor, B., & Horejsi, C. (2014). Sosyal Hizmet Uygulaması: Temel Teknikler ve İlkeler. Ankara: Nika Yayınevi.<br>**3.** Zastrow, C. (2013). Sosyal Hizmete Giriş. Ankara: Nika Yayınevi. |
| 2 | **Sosial risk sahəsi araşdırması** | Qoruyucu-profilaktik xidmət sahəsi. Sosial risk araşdırma modeli**.** Sosial risk sahələrinin dəyərləndirilməsi**.** Ailə və sosial mühit riskləri. Miqrasiya və şəhərsalma ilə əlaqəli risklər. Yoxsulluqla əlaqəli risklər. Qoruyucu-profilaktik sosial iş modeli. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Karataş, Z., & Dağdelen, G. (2014). Çocukların Risklerden Korunmasında Erken Tanı Ve Uyarı Sisteminin Önemi. Türkiye'de Çocuğun Refahı ve Korunması Sempozyumu (s. 301-315). Ankara: Gündem Çocuk Derneği Yayınları. |
| 3 | **Uşaq rifahı sahəsində sosial iş təcrübəsi** | Müdafiəyə ehtiyacı olan uşaq. Uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlər. Uşaqların qorunması üçün səbəblər. Müdafiəyə ehtiyacı olan uşağın psixo-sosial inkişafı. İnstitusional qulluq xidmətləri. Müdafiəyə ehtiyacı olan uşaqlara xidmət göstərən təşkilatlar. İnstitusional qulluğun uşaqlara təsiri. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Akyüz, E. (2013). Çocuk Hukuku: Çocukların Hakları ve Korunması (3. b.). Ankara: Pegem Akademi. |
| 4 | **Himayədar ailə və övladlığa götürmə sahəsində sosial iş** | Himayədar ailə xidməti. Himayədar ailə tipləri. Himayədar ailə olmanın şərtləri. Övladlığa götürmə xidməti. Övladlığa götürmənin şərtləri. Övladlığa götürmə prosedurları. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Abdulhakim beki (2016). Türkiyədə sosial iş təcrübələri. auzefkitap, İstanbul. |
| 5 | **Sosial yardım sahəsində sosial iş** | Yoxsulluq və yardıma ehtiyac. Mütləq yoxsulluq. Nisbi yoxsulluq. Sosial yardımlar. Sosial yardım və Həmrəylik fondunun yardım xidmətləri. Sosial və iqtisadi dəstək xidmətləri. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, İstanbul.<br>**2.** Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh. |
| 6 | **Ahıllarla sosial iş təcrübəsi** | Yaşlılığına görə qulluğa ehtiyac. Ahıllar evi. Yaşlılara qulluq və reabilitasiya mərkəzi xidmətləri. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, İstanbul.<br>**2.** Soygür, H. (2000). Bakımevlerinde Yaşlı Bakımı ve Psikolojik Değerlendirme. Demans Dizisi (1), 32-40. |
| 7 | **Ailələrlə sosial iş təcrübəsi** | Ailə məsləhəti prosesi. Ailə ilə ilk müsahibə. Ailə məsləhətinin orta mərhələsi. Sonlandırma mərhələsi. Ailə quruluşunun qiymətləndirilməsi. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, İstanbul.<br>**2.** Nazlı, S. (2001). Aile Danışmanlığı. Ankara: Nobel Yayın Dağıtım. |
| 8 | **Əlillərlə sosial iş təcrübəsi** | Əlilliyin mahiyyəti və növləri. Əlillərə qulluq xidmətləri. Evdə qulluq xidmətləri. İnstitusional qulluq və reabilitasiya xidmətləri. Evdə sağlıq xidmətləri. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Abdulhakim beki (2016). Türkiyədə sosial iş təcrübələri. auzefkitap, İstanbul. |
| 9 | **Səhiyyə** | Xəstəxanalarda tibbi sosial iş tətbiqləri. | **1.** Zeki Karataş (2017). Sosyal |

| | | | |
|---|---|---|---|
| | **müəssisələrində sosial iş təcrübəsi** | Universitet xəstəxanalarının uşaq qoruma mərkəzləri. İctimai zehni sağlamlıq mərkəzlərində sosial iş tətbiqləri. Ailə sağlamlığı mərkəzlərində sosial iş tətbiqləri. | hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2**. Özbesler, C., & İçağasıoğlu-Çoban, A. (2010). Hastane Ortamında Sosyal Hizmet Uygulamaları: Ankara Örneği. Toplum ve Sosyal Hizmet, 21(2), 31-46. |
| 10 | **Məktəb mühitində sosial iş təcrübəsi** | Məktəb sosial işçisinin vəzifələri. Məktəbdə psixo-sosial müdaxilə vahidində sosial iş. Məktəblərdə maddə asılılığının qarşısının alınması işləri.<br>Məktəblərdə istismarın qarşısının alınması işləri. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Özbesler, C., & Duyan, V. (2009). Okul Ortamlarında Sosyal Hizmet. Eğitim ve Bilim, 34(154), 17-25. |
| 11 | **Ədliyyə müəssisələrində sosial iş təcrübəsi** | Ədliyyə sistemində sosial iş tətbiqləri. Cinayətə sövq edilmiş uşaqlarla iş. Cinayət qurbanları olan uşaqlarla iş. Ədliyyə sistemində sosial işçilərin işlədiyi bölmələr. Uşaqla məhkəmə müsahibəsi prosesi. Məhkəmə sistemində sosial müayinə hesabatının hazırlanması | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Uluğtekin, S. (2004). Çocuk Mahkemeleri ve Sosyal İnceleme Raporları. Ankara: TBB Yayınları.<br>**3.** Abdulhakim beki (2016). Türkiyədə sosial iş təcrübələri. auzefkitap, İstanbul. |
| 12 | **Sosial iş layihəsi hazirlama və tətbiqetmə** | Layihə və layihə idarəetməsi. Layihə dövrü idarəetməsi. Layihə hazırlığı mərhələləri. Layihə mövzusunun müəyyən edilməsi. Təhlil mərhələsi. Planlaşdırma mərhələsi. Layihə büdcəsinin hazırlanması mərhələsi. Layihə davamlılığı. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Akyüz, A., Eser, İ., & Kurma, E. (2007). Proje Döngüsü Yönetimi. İstanbul: Bilgi Üniversitesi Yayınları.<br>**3.** Barutçugil, İ. (2008). Proje Yönetimi. İstanbul: Kariyer Yayıncılık |
| 13 | **Miqrantlarla və qaçqınlarla sosial iş təcrübəsi** | Multikulturalist sosial iş müdaxiləsi. Fərqli mədəniyyətlərdən olan insanlar üçün sosial iş. Miqrantlar və sığınacaq axtaranlarla sosial iş prosesi. Qəbul və görüş. İlkin qiymətləndirmə. Planlaşdırma və müqavilə. Müdaxilə və müşahidə. Qiymətləndirmə və sonlandırma. Qaçqınlar və sığınacaq axtaranlar. Mühacirlər. İnsan alveri qurbanları. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Tufan, A. B., & Özgür, Ö. (2010). Göç, Farklılık ve Sosyal Dışlanma. Sosyal Dışlanma ve Sosyal Hizmet Sempozyumu (s. 85-94). Ankara: Başkent Üniversitesi. |
| 14 | **Sosial iş təcrübəsində etika** | Sosial iş etikasının fəlsəfi əsasları. Sosial iş peşəsinin etik dəyərləri. Sosial iş tətbiqində etik dilemmalar. Sosial iş peşəsinin etik prinsipləri və məsuliyyətləri. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Bond, T. (2016). Psikolojik Danışmanlıkta Etik ve Yasal Konular (2. b.). (B. Yeşilyaprak, Çev.) Ankara: Nobel Akademik Yayıncılık. |
| 15 | **Diğər sahələr üzrə sosial iş təcrübəsi** | Fəlakət və sosial iş tətbiqləri. Şəhid yaxınları və qazilər üçün sosial iş təcrübələri. Orduda sosial iş təcrübəsi. Maddə asılılığı və sosial iş təcrübələri. | **1.** Zeki Karataş (2017). Sosyal hizmette uygulama alanları, auzefkitap, İstanbul.<br>**2.** Abdulhakim beki (2016). Türkiyədə sosial iş təcrübələri. auzefkitap, İstanbul. |

**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

**XIII. Sərbəst işlər (Qrup işi):** nəzərdə tutulmayıb.

***XIV.*** **Fənn üzrə qiymətləndirmə** **(*Əyani təhsilalma forması üzrə*)**

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal

- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və

təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

**“Ictimai idarəetmə və sosial innovasiyalar”**

**kafedrasının müdiri:** **i.f.d., dos.Məmmədov E.Q.**